# Pandemiya bəlası və erməni faşizmi

Ermənistan regional və qlobal beynəlxalq siyasətdə qeyri-ardıcıl və qeyri-səmimi davranışlarını hətta bəşəriyyət üçün ağır, koronavirusla mübarizə dövründə də davam etdirir. Dünya koronavirusla mübarizə çərçivəsində ən zəruri sosial məsafə tələbinə ciddi əməl etdiyi halda, Ermənistan təcavüzkar siyasətindən əl çəkmir.

Sentyabrın 27-də ermənilərin növbəti təxribatına cavab olaraq əks-hücum əməliyyatına başlayan şanlı Azərbaycan Ordusu işğal altında olan torpaqlarımızı azad etməklə düşmən üzərində hərbi üstünlüyü ələ aldı. Bu qələbə xəbərləri bütün xalqın sevincinə, qüruruna səbəb oldu. O da bir reallıqdır ki, əzəli, doğma torpaqlarımız uğrunda gedən Vətən müharibəsi digər cəbhədəki gözəgörünməz düşməni - koronavirusu (COVID-19) arxa plana keçirdi. Halbuki "səssiz, gözəgörünməz düşmənlə müharibə" adlandırılan pandemiya hələ bitməyib və hazırda bütün dünyada daha güclü yayılmağa davam etməkdədir. Hətta virus daha da aqressiv şəkildə yayılaraq əksər ölkələrdə sanitar-epidemioloji vəziyyəti pisləşdirib. Artıq dünyada koronavirusa yoluxanların sayı 37 milyonu, infeksiya qurbanlarının sayı isə 1,1 milyonu ötüb. Azərbaycanda COVID-19 infeksiyasının yarada biləcəyi təhlükənin qarşısının alınması istiqamətində həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində, eləcə də, əhalinin tətbiq olunan karantin və gigiyena qaydalarına ciddi və məsuliyyətlə əməl etməsi, dövlət-vətəndaş həmrəyliyi sayəsində yoluxma hallarının kəskin azalmasına və stabilləşməsinə nail olunub. Ölkəmizin hər bir yerində olduğu kimi Qəbələdə də pandemiyaya qarşı profilaktiki tədbirlər həyata keçirilməkdədir. Bütün ictimai obyektlərdə, idarə-təşkilatlarda dezinfeksiya işləri aparılır. Epidemiyaya qarşı işlərin daha da genişləndirilməsi məqsədilə kompleks tədbirlər davam etdirilir. Həm mərkəzi, həm də qəsəbə və yaşayış massivlərindəki küçələrdə dezinfeksiya işləri aparılır.İnsanlar virusla mübarizə ilə bağlı qoyulmuş tapşırıqlara anlayışla yanaşırlar. Uşaq müəssisələrində bununla bağlı daha ciddi tədbirlər həyata keçirilir. Görülən əks epidemik tədbirlərin səmərəliliyi nəticəsində rayonumuzda koronavirusa yoluxma halları mövcud deyildir. Lakin bütün Azərbaycanda vəziyyət nəzarət altında olsa da, yoluxma saylarındakı stabillik əhalini arxayınlaşdırmamalı, virusun yox olması kimi anlaşılmamalıdır.

Hazırkı dövr çox həssas bir dönəmdir. Avropa ölkələrində, o cümlədən qonşu ölkələrdə vəziyyət göz qarşısındadır. Dünyanın bir sıra ölkəsində virusun yenidən tüğyan etməsi, bir sıra Avropa ölkəsində məhdudiyyətlərin təkrar tətbiq olunması, qonşu ölkələrdə yeni dalğanın baş qaldırması bizi amansız düşmənə qarşı mübarizədə səfərbər etməlidir. Üstəlik, indi payız-qış mövsümünün başlanğıcındayıq. Dəfələrlə xəbərdarlıq edilib ki, qarşıdakı soyuq mövsümdə ikiqat diqqət və məsuliyyət tələb olunur. Koronavirusun dünyada geniş vüsət alması, respirator xəstəliklərin baş qaldırdığı bir dövrdə olduğumuzu nəzərə alsaq, daha da diqqətli olmağımız vacibdir. Aylardır davam edən qlobal təhlükə ilə mübarizədə sayıqlıq və məsuliyyət hissinin azaldılmaması mühüm rol oynayır. Kiçik bir ehtiyatsızlıq, hansısa məsuliyyətsizlik, laqeydlik sonradan böyük fəsadlar yarada bilər.

İndiyədək vətəndaşlarımız xüsusi karantin qaydalarına ciddi şəkildə riayət ediblər və bunun nəticəsində xəstəlik hal-hazırda nəzarət altındadır. İndiyə qədər pandemiya ilə mübarizədə qazandığımız nailiyyətləri itirməmək üçün karantin rejiminin qaydalarına əməl olunması zəruridir. Eyni zamanda, dövlətimiz, xalqımız və milli təhlükəsizliyimiz üçün belə bir mürəkkəb dövrdə karantin qaydalarına əməl olunması virusla mübarizədən daha böyük əhəmiyyətə malikdir. Bu işdə hər bir vətəndaşımızın töhfəsi təqdirəlayiqdir.

Bəzən pandemiyanı müharibə ilə müqayisə edərək, onu "gözəgörünməz düşmən", "səssiz müharibə" adlandırırlar. Bəli, qurbanlarının sayına görə pandemiya heç də müharibədən geri qalmır. Odur ki, torpaqlarımız uğrunda gedən savaş digər cəbhədəki düşməni, koronavirus cəbhəsində də döyüşümüzün davam etdiyini unutdurmamalıdır. Əksinə, ölkənin indiki durumunda arxa cəbhənin əsgərləri olaraq məsuliyyətimiz daha da artmalıdır. Vətən müharibəsində xalq olaraq göstərdiyimiz birliyi, həmrəyliyi COVID-19 cəbhəsində də göstərməliyik. Həm ön cəbhəyə, həm də həkimlərə kömək etmək, özümüzün və əsgərlərimizin sağlamlığını qorumaq üçün karantin qaydalarına xüsusi diqqət yetirməliyik.

Unutmayaq ki, koronavirus da bir düşməndir və ona qarşı mübarizə silahımızı yerə qoymamalıyıq. Gündəlik qoruyucu tədbirlərə - maskadan istifadə, əl gigiyenasına diqqət və sosial məsafəyə riayət etməklə gözəgörünməz düşmənə qarşı döyüşdə qalib gələ bilərik. Bu qaydalara ciddi şəkildə əməl etməklə cəmiyyətin, xalqın sağlamlığını qorumalıyıq. Unutmayaq ki, sağlam cəmiyyət və xalq bütün cəbhələrdə düşmənə qalib gələ bilər.

Biz birlikdə güclüyük!

**Təranə ABDURRAHMANOVA,**
**şəhər 1 saylı uşaq bağçasının müdiri.**

# Risk qruplarına aid vaksinasiya kampaniyası

Payız-qış mövsümünün başlanması ilə əlaqədar əhali arasında qrip və kəskin respirator virus infeksiyalarına qarşı profilaktik və əksepidemik, həmçinin infeksiya üzərində epidemioloji nəzarətin gücləndirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi zəruridir.



Bu barədə Səhiyyə Nazirliyinin yaydığı məlumatda qeyd olunub.

Bildirilib ki, COVID-19 pandemiyasının davam etdiyi müddətdə digər respirator xəstəliklərlə yanaşı, həm də mövsümi qripə yoluxmamaq üçün müəyyən qaydalara riayət etmək vacibdir. Diqqət yetirilməli ilk məqam immunitetin möhkəmləndirilməsinə nail olmaqdır ki, bunun üçün düzgün qidalanmaya riayət etmək lazımdır. Vitaminlərlə zəngin meyvə-tərəvəzlər qida rasionuna daxil edilməli, qapalı məkanlar tez-tez havalandırılmalı, tibbi maskalardan və dezinfeksiyaedici vasitələrdən istifadə olunmalı və fiziki məsafənin qorunmasına diqqət yetirilməlidir.

Bununla yanaşı, qrip xəstəliyinin qarşısının alınması üsullarından biri də vaksinasiyadır. Məhz bu vaksinasiyanın ölkəmizdə də aparılması məqsədilə Səhiyyə naziri müvafiq əmr imzalayıb. Bu məqsədlə xüsusi əhali qrupları üçün ölkəyə mövsümi qrip əleyhinə vaksin artıq gətirilib.

Oktyabrın 12-dən başlayaraq əhali arasından müəyyən olunmuş risk qruplarına aid şəxslərin mövsümi qripə qarşı vaksinasiya kampaniyasına start verilmişdir. Bu kampaniya zamanı ilk növbədə tibb işçiləri, hamilə qadınlar və xroniki tənəffüs yolları xəstəliklərinə malik olan 6 aylıqdan yuxarı uşaqlar və böyüklər vaksinasiyaya cəlb edilmişlər. Kampaniya çərçivəsində bu əhali qruplarından olan şəxslər yaşayış yeri üzrə əhaliyə xidmət göstərən ambulator-poliklinik müəssisələrə müraciət edərək, həkim baxışından keçib peyvənd vurdura bilərlər.

Kampaniya bir ay müddətində davam edəcək. Qeyd edək ki, peyvənd pulsuz olacaq. Bu ilin payız-qış mövsümündə belə kompleks yanaşma ilə respirator infeksiyalarla xəstələnmə göstəricilərində epidemioloji stabilliyin əldə edilməsinə nail oluna bilər.

**Səfa ASLANOV,**
**“Qəbələ”**

# COVID-19 vaksinləri kimlərə vurulacaq

Azərbaycanda koronavirusa görə vaksinlərin ilkin olaraq kimlərə vurulacağı açıqlanıb.

Bunu TƏBİB-in İdarə Heyətinin sədri Ramin Bayramlı Koronavirusla Mübarizəyə Dəstək Fondunun İctimai Nəzarət Şurasının SARS-COV-2 virusuna qarşı vaksinasiya məsələləri ilə bağlı iclasında deyib.

O qeyd edib ki, kimlərin vaksinasiya olunması ilə bağlı risk qrupları müəyyən edilib:

“Yəqin ki, yaxın günlərdə strategiya hazırlanacaq və ictimaiyyətə açıqlanacaq. Risk qrupuna səhiyyə işçiləri, əhali ilə sıx təmasda olan hüquq-mühafizə orqanları əməkdaşları, eyni zamanda, yanaşı xəstəliyi olan şəxslərə, dializ xəstələri, şəkərli diabet xəstələri, ürək qandamar xəstəlikləri, böyrək çatışmazlığı və digər xəstəliyi olan şəxslər daxildir”.

O əlavə edib ki, vaksinasiya könüllü xarakter daşıyacaq.

Vaksinlərin tətbiqi zamanı istehsalçının tövsiyələri nəzərə alınacaq:

“Biz hesab edirik ki, aşağı yaşlılara, reproduktiv dövrdə olanlara vurulmasın. 65 yaşdan yuxarı insanlar risk qrupuna daxil olduğu üçün bu yaşdakı insanlara vaksinlərin vurulması məqsədəuyğundur”.

# Maskalardan imtina müddəti

“RİA Novosti”- nin məlumatına görə Rusiyada Qamalıya adına Epidemiologiya və Mikrobiologiya Milli Tədqiqat Mərkəzinin direktoru Aleksandr Qinsburq bildirmişdir ki, vaksinasiyadan sonra şəxs ən azı 21 gün gözləməlidir, təcrübə qrupunda olduğundan əmin olmalıdır.



Həmçinin o, xəbərdarlıq etmişdir ki, protektiv anticisimlərin səviyyəsini təyin etmək və ancaq bundan sonra maska taxıb-taxmamağa qərar vermək lazımdır.

Preparatın ikinci komponenti tətbiq edildikdən və anticism səviyyəsi təyin olunduqdan üç həftə sonra maska taxmaqdan imtina etmək olar.

**Oktyabr ayının birinci ongünlüyündə COVİD-19**

Koronavirusun ən çox qeydə alındığı qitə Asiyadır.

İkinci yeri -Şimali Amerika üçüncü yeri isə Cənubi Amerika materikləri paylaşır.

Virusa yoluxma sayına görə ilk beşlikdə olan dövlətlər ABŞ (7 945 505 nəfər), Hindistan (5 09 1840 nəfər), Rusiya (1 285 084 nəfər) və Kolumbiyadır (902 747 nəfər).

İranda 496 253, Türkiyədə 334 031, Ermənistanda 55736, Gürcüstanda isə 11 271 nəfərdə koronavirus müəyyən edilib.

Azərbaycanda koronavirusa yoluxan 43280 nəfərin 619-u dünyasını dəyişmiş, 39671-i sağalmışdır.

**“Qəbələ”**

## Koronavirus dünyada 1.097.288 nəfərdən çox can alıb

“COVİD-19” virusuna yoluxanların sayı dünya üzrə 38.770.004-ə çatıb.

Ümumdünya Səhiyyə Təşkilatının SON statistikasına əsasən, dünya üzrə koronavirus xəstəliyindən ölənlərin sayı 1.097.288 nəfərdir. 29.139.140 nəfər xəstəlikdən sağalıb. Epidemiya ümumilikdə 158 ölkədə yayılıb.

